http://www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. №21 (1553) 15 dekabr 2012 - ci il Qiyməti 20 qəpik

# Müstəqil Azərbaycan yaşadıqca, ulu öndər Heydər Əliyev də ürəklərdə yaşayacaqdır

## Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etmişdir

**◆ Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etmişdir.**



Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından doqquz il keçir. Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilmişdir. Bütün il boyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıtmış, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınmış böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.

Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının doqquzuncu ildönümü günü - dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanı ziyarət edərək, xalqımızın ümummilli liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əkillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirdilər.

Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə birinci dəfə respublika rəhbərliyinə gələn Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970-1985-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdır. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

1993-cü ilin yayında, müstəqilliyini təzəcə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük Qayıdış idi və ulu öndər özünün müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

Dekabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdi.

Milli Məclisin deputatları, nazirlər, komitə, şirkət və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri, müxtəlif ölkələrin təmsilçiləri də Fəxri xiyabana gəlmişdilər.



Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın, dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarları üstünə də gül dəstələri qoydu.

Ulu öndərin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

## ATU-da ulu öndərin anım mərasimi keçirilmişdir

**◆ Dekabrın 12-də Azərbaycan Tibb Universitetində xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş tədbir keçirilmişdir.**




Tədbir iştirakçıları ulu öndərin universitetin foyesindəki büstünün önünə əklil qoymuş və gül dəstələri düzmüşlər.

Mərasimdə çıxış edən ATU-nun rektoru, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov unudulmaz şəxsiyyət, dərin zəka sahibi Heydər Əliyevin Azərbaycan elminin və təhsilinin himayədarı olduğunu, bu sahədə çalışanlara həmişə diqqət və qayğı göstərdiyini xatırlatmışdır.




Rektor bildirmişdir ki, adı tarixdə əbədiləşən dünya şöhrətli siyasətçi Heydər Əliyevin ölkəmizin dövlət müstəqilliyi bərpa edildikdən sonra iki dəfə ATU-da olması, gələcək həkimlərə dəyərli məsləhətlər verməsi universitetin tarixində silinməz izlər qoymuşdur. Ulu öndərin səyi nəticəsində 1998-ci ildə ATU-nun 11 mərtəbəli yeni tədris binası tikilib istifadəyə verilmişdir. Universitetin maddi-texniki bazasının möhkəmləndirilməsi və ölkəmizdə tibb kadrlarının hazırlanması məhz ulu öndərin adı ilə bağlıdır.

ATU-nun ilk klinikası olan stomatoloji klinikanın 2002-ci ildə ümummilli lider Heydər Əliyevin böyük qayğısı sayəsində yaradıldığını diqqətə çatdıran rektor vurğulamışdır ki, onun layiqli davamçısı Prezident İlham Əliyevin dəstəyi ilə universitetin onkoloji və çoxprofilli terapevtik klinikaları da inşa edilmiş, ən müasir avadanlıqla təchiz olunaraq əhaliyə dünya standartlarına uyğun səviyyədə tibbi xidmət göstərməyə başlamışdır.

Tədbirdə Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı, akademik Böyükkişi Ağayev, professor Qoşqar Əliyev və ATU-nun tələbəsi, Prezident təqaüdçüsü Gülnar Ağayeva dünya şöhrətli siyasi xadimin zəngin və şərəfli ömür yolundan, Azərbaycan xalqı və dövləti qarşısında əvəzsiz xidmətlərindən, elmə və təhsilə, xüsusilə səhiyyə sahəsinə göstərdiyi qayğıdan danışmışlar.

Mərasim iştirakçıları ulu öndərin ölkəmizə rəhbərlik etdiyi illəri Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış mühüm mərhələ kimi qiymətləndirmişlər. Qeyd olunmuşdur ki, ümummilli liderin Azərbaycan naminə gördüyü misilsiz işlər onu tarixdə və qədirbilən xalqımızın yaddaşında əbədi yaşadacaqdır.

Vurğulanmışdır ki, ulu öndər özünün ardıcıl və məqsədyönlü dövlətçilik və siyasi fəaliyyəti ilə müstəqil Azərbaycan dövlətinin banisi, xilaskarı və qurucusu olmaqla bərabər, həm də XX əsrin dünya siyasətində silinməz izlər qoymuş tarixi şəxsiyyətdir.

**Arif MƏMMƏDLİ**

# Dünya siyasətçiləri Heydər Əliyev haqqında



*Heydər Əliyev Azərbaycan dövlətinin qurucusudur. 1918-1920-ci illərdə olduğu kimi, Azərbaycan dövlətinin bayrağı yenə də yüksəlmişdir və bir daha enməyəcəkdir. Bu bayrağın enməməsi üçün keçən 10 ildə bütün səylər göstərilmişdir. Heydər Əliyev Azərbaycan dövlətini dünyaya tanıtmışdır. Dünya Azərbaycan dövlətini, sadəcə tanımaqla kifayətlənməmiş, onunla dost olmağa çalışmışdır.*

**Süleyman Dəmirəl,**
**Türkiyənin keçmiş prezidenti.**

*Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Bu günlərdə Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır. Məhz onun rəhbərliyi altında Amerika Birləşmiş Ştatları və Azərbaycan, Əfqanıstan və İraqdakı əməliyyatlar da daxil olmaqla terrorizmə qarşı mübarizədə olmuşlar.*

**Corc Buş,**
**Amerika Birləşmiş Ştatlarının keçmiş prezidenti.**

*Heydər Əlirza oğlu Azərbaycan Respublikası üçün, MDB-nin inkişafı üçün, Qazaxıstan və Azərbaycan xalqlarının çoxəsrlik dostluğunun möhkəmlənməsi üçün çox işlər görmüşdür.*

**Nursultan Nazarbayev,**
**Qazaxıstan Respublikasının prezidenti.**

*Heydər Əliyev əsrimizin nadir yetişdirdiyi dövlət xadimlərindəndir. Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Azərbaycan müstəqilliyinin möhkəmləndirilməsi, xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Azərbaycanın ən çətin anlarında vətəni xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmişdir.*

**İhsan Doğramacı**

*Bütün dünyada layiqli hörmət və böyük nüfuz qazanmış görkəmli dövlət xadimi həyatdan getmişdir. Uzun illər ərzində Heydər Əlirza oğlu Əliyevin səmərəli fəaliyyəti xalqlarımızın ümumi tarixi ilə bilavasitə bağlı olmuşdur. O, Rusiya və Azərbaycanın strateji tərəfdaşlığının təməlini qoymuş, dostluğumuzun və qarşılıqlı anlaşmamızın möhkəmlənməsinə böyük şəxsi töhfə vermişdir.*

**Vladimir Putin,**
**Rusiya Federasiyasının prezidenti.**

# REKTOR YARADICI TƏLƏBƏLƏRİ MÜKAFATLANDIRMIŞDIR

◆ **Dekabrın 13-də ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov yaradıcılıqla məşğul olan bir qrup rəssam və idmançı tələbələrimizi qəbul etmişdir.**

Tələbələrin nailliyyəti barədə rektora məlumat verən Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Elşad Novruzov bildirdi ki, 18 oktyabr Dövlət Müstəqilliyi Günü münasibətilə Nəsimi rayonunun ərazisində yerləşən ali məktəblərin iştirak etdiyi sərgidə rəssam tələbələrimizin əsərləri çox fərqlənmişdir. Digər idmançı tələbələrimiz isə Yeni Azərbaycan Partiyasının 20 illiyinə həsr olunmuş idmanın futzal növü üzrə yarışlarda yenə də bu rayonda yerləşən altı universitet komandaları arasında nəticə etibarı





Fotolar Cənnətalı Çingizindir

ilə çempion olmuşdur. Hər iki tədbir YAP-ın Nəsimi rayon təşkilatının dəstəyi ilə keçirilmişdir.

İstedadlı gənclərə rəhbərlik tərəfindən daim diqqət yetirildiyini qeyd edən Ə.Əmiraslanov bir neçə ay öncə tələbələrimizin əl işlərindən ibarət olan sərginin təşkil olunduğunu xatırladı, onların rəsm əsərlərinin universitetimizdə maraqla qarşılandığını vurğuladı.

İdmançı tələbələrimizin də uğurlarından söhbət açan rektor idmanın müxtəlif növləri üzrə universitetimizi təmsil edən komandaların ali məktəblər arasında keçirilən yarışlardakı qələbələrini yüksək qiymətləndirdi.

Sonra yaradıcı və idmançı tələbələri xüsusi sertifkatlar və hədiyyələrlə mükafatlandıran rektor fəxri diplomu və kuboku qalib komandaya təqdim etdi, həmişə universitetimizin şərəfini qoruyan tələbələrimizə bundan sonra da müvəffəqiyyətlər arzuladı.

Sonda tədbir iştirakçıları rektorla xatirə şəkili çəkdirdilər.

**MƏNSUR**

# Alimlərimiz İstanbulda konfransda iştirak etmişlər

◆ **Bu günlərdə Türkiyə Cümhuriyyətinin İstanbul şəhərində XVI Avropa Cərrahlar Cəmiyyətinin (ESS) illik konfransı oldu.**

Bu konfransa Azərbaycan Respublikasının müxtəlif tibb ocaqlarından, o cümlədən Tibb Universitetindən də dəvət alanlar oldu. I cərrahi xəstəliklər kafedrasından dosent Eldar Əliyev, assistentlər Nadir Zeynalov, Solmaz İmanova, Elman Əzimov, Azər Hümmətov, Taryel Ömərov, həmçinin ümumi cərrahlıq kafedrasının müdiri, professor Çərkəz Cəfərov, professor Məhəmməd Kərimov və başqaları da bu konqresə dəvət alaraq iştirak etdilər. İştirak edən kafedra əməkdaşları arasından Nadir Zeynalov və Taryel Ömərovun konfransın gündəliyinə uyğun çıxışları oldu. Konfransı açılışını Avropa Cərrahlar Cəmiyyətinin sədri professor Cem Terzi öz yadda qalan çıxışı ilə açıq elan etdi. Bundan sonra bir sıra Avropa dövlətlərinin cərrahi dərnəklərinin sədrləri də öz çıxışları ilə konfransın açılışını daha maraqlı etdilər. Bunlardan Fransa cərrahi dərnəyinin prezidenti professor Luc Michel tarixə əsaslanan bir mövzu ilə qədim türk mədəniyyətinə və orta əsrlər türk təbabətinə söykənən geniş həcmli bir çıxışla yaddaşlarda qaldı. Konfransın gündəliyi cərrahiyyənin ən aktual sahələrini özündə birləşdirən müxtəlif tərkibli çıxışlar və videolar ilə zəngin idi. Müzakirə olunan mövzularda ən son müasir texnologiyaların, o cümlədən Robot cərrahiyyəsinin inkişafına xüsusi yer ayrılmışdır. Birinci gün xüsusi olaraq oz əyani-video görüntülü kurslar ilə daha çox yadda qalan oldu. Bunlardan MASLAK Acıbadəm xəstəxanasında "Robotik cərrahiyə", Amerikan qospitalında "Laparoskopik kolorektal cərrahiyə", İstanbul tibb fakültəsində "Endorektal-endoanal ultrasonoqrafiya" və bu kimi digər kurslarla daha çox diqqəti cəlb etdi. II-III gün Avropa və digər dövlətlərdən gələn professor-həkim heyətinin tibbin müxtəlif sahələrinə aid ən son məlumatların, həmçinin cərrahi taktikaları özündə əks etdirən çıxışları ilə diqqət çəkdi.




**Taryel ÖMƏROV,**
*I cərrahi xəstəliklər kafedarsının əməkdaşı*

# Sağlamlıq aylığı çərçivəsində respublika üzrə bir milyona yaxın insan müayinə olunmuşdur

◆ **Ölkənin müalicə-profilaktika müəssisələrində Səhiyyə Nazirliyi tərəfindən "Sağlam həyat uğrunda" devizi altında keçirilən sağlamlıq aylığı çərçivəsində tədbirlər davam etdirilir.**

Nazirliyin mətbuat xidmətindən bildirmişlər ki, səhiyyə müəssisələrində terapevt, cərrah, nevropatoloq, pediatr, mama-ginekoloq, oftalmoloq və s. mütəxəssislər tərəfindən dekabrın 10-dək respublika üzrə 987 min 885 nəfərin tibbi müayinəsi, o cümlədən laboratoriya analizləri, ultrasəs və elektrokardioqrafiya müayinələri aparılmışdır.

Müayinələr zamanı müxtəlif xəstəlikləri aşkar olunmuş insanlar mütəxəssislər tərəfindən stasionar və ambulator müalicələrə cəlb edilmişlər.

Profilaktik müayinələr dekabrın sonunadək davam edəcəkdir.

# Həyatda əbədi iz qoyan alim

**Azərbaycanda iqtisad elminin bu gün nail olduğu yüksək səviyyənin təmin edilməsində müstəsna xidmətləri olan alimlərdən biri də Əməkdar Elm Xadimi, AMEA-nın müxbir üzvü, Azərbaycan Tibb Universitetinin "İqtisadi nəzəriyyə və hüququn əsasları" kafedrasının müdiri olmuş, iqtisad elmləri doktoru, professor Aqil Əlirza oğlu Əliyevdir.**



Ölkənin elmi və ictimai dairələrinin yekdil fikrincə, A.Əliyev görkəmli elm xadiminə xas olan üstün keyfiyyətlərə malikdir; lakin ona Azərbaycan elmində özünəməxsus mövqe və imic qazandıran başlıca keyfiyyəti vicdanlı alim olmasıdır. O, bir alim kimi heç bir zaman asan yolla getməyib, özünə qarşı daim tələbkar olub və həyatla çox sıx təmasda elmin mürəkkəb, çətin yolu ilə addım-addım irəliləyərək, müdriklik zirvəsinə çatıb.

Aqil müəllim dünyaya Heydər Əliyev kimi dahi siyasətçi və görkəmli dövlət xadimi, Həsən Əliyev və Cəlal Əliyev kimi dünya şöhrətli alimlər bəxş etmiş sadə və zəhmətkeş bir ailədə, övladlarına ən qiymətli insani keyfiyyətlər - zəhmətsevərlik, təmizlik, halallıq, vətənpərvərlik, mərdlik və alicənablıq aşılamış, gündəlik ruzusunu halal əməyi ilə qazanan Əlirza kişinin və balalarının üstündə yarpaq kimi əsən sadə Azərbaycan qadını - İzzət ananın ailəsində doğulub boya-başa çatmışdır. Bütün qardaş-bacıları kimi, Aqil müəllim də daim zəhmətə qatlaşmağa, yalnız özünə, öz əməyinə güvənməyə, insanlara qayğı və həssaslıqla yanaşmağa, imkansız və kimsəsizlərə arxa olmağa, onlara kömək etməyə və əl tutmağa, sadə və təvazökar həyat sürməyə üstünlük vermişdir. Məhz bu keyfiyyətlər sayəsində o, iqtisadi elmləri doktoru, professor, kafedra müdiri vəzifəsinə, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvlüyünədək yüksəlmişdir.

A.Əliyev 1951-ci ildə Azərbaycan Dövlət Universitetini (indiki Bakı Dövlət Universiteti) bitirmiş, əvvəlcə bir müddət Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunda və Azərbaycan Politexnik İnstitutunun "Siyasi iqtisad" kafedrasında çalışmış, sonradan isə Azərbaycan Tibb Universitetinin "Siyasi iqtisad" kafedrasında işləməyə başlamışdır. Tədris işinə və böyük elmə qovuşmaq həvəsi onu bütün şüurlu həyatını ali məktəbdə müəllimlik etmək, gənclərin təlim-tərbiyəsi ilə məşğul olmaq və elmi-tədqiqat işləri aparmaq kimi çox çətin, mürəkkəb və eyni zamanda müqəddəs bir vəzifənin yerinə yetirilməsinə həsr etməyə sövq etmişdir. Nəticədə A.Əliyev 1964-cü ildə namizədlik, 1983-cü ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. 1979-cu ildə ona professor elmi adı verilmiş, 2001-ci ildə isə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. O, əlli ildən artıq bir zaman kəsiyində Azərbaycan Dövlət Tibb Universitetində çalışmışdır. Əvvəlcə burada kabinet müdiri kimi fəaliyyət göstərmiş, sonra müəllim, dosent, professor və kafedra müdiri vəzifəsində işləmiş, iyirmi ildən artıq bir dövrdə isə "İqtisadi nəzəriyyə və hüququn əsasları" kafedrasına rəhbərlik etmişdir. Bütün bu illər ərzində professor A.Əliyevin rəhbərliyi ilə kafedrada aparılan yüksək səviyyəli tədris və elmi-tədqiqat işlərinin nəticəsində buradakı döyük tərəqqinin təməli qoyulmuşdur.

Professor A.Əliyevin apardığı tədqiqat işləri çoxşaxəli olsa da onun elmi yaradıcılığında əsas yeri sosial-iqisadi problemlər, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, şəhər və kənd əhalisinin həyat səviyyəsinin bir-birinə yaxınlaşması qanunauyğunluqları və yollarının öyrənilməsi, ərzaq və texizat problemlərinin həlli, səhiyyənin iqtisadiyyatı, əhalinin sağlamlığının sosial-iqtisadi və demoqrafik inkişaf aspektlərinin tədqiqi və s. tutur. O, 200-ə yaxın elmi-tədqiqat əsərinin, o cümlədən 32 monoqrafiyanın müəllifi olmuşdur. Əsərlərinin xeyli qismi xarici ölkələrdə çap edilmişdir.

Professor A.Əliyevin əsərləri Moskva, Sankt-Peterburq, Çexiya, Slovakiya və başqa ölkə və şəhərlərdə yaşayan iqtisadçı alimlərin diqqətini özünə cəlb etmiş və onların əsərlərində onun kitablarına çoxlu istinadlar edilmişdir.

Professor A.Əliyev beynəlxalq və respublika əhəmiyyətli bir çox elmi-praktik konfransların, simpoziumların və seminarların iştirakçısı olmuş, həmin elmi məclislərdə Azərbaycanın iqtisad elmini layiqincə təmsil etmişdir.

Aqil müəllimin kadr hazırlığı sahəsində də böyük xidmətləri olmuşdur. Onun bilavasitə rəhbərliyi və köməyi ilə iqtisad elmi sahəsində onlarca elmlər doktoru və elmlər namizədi hazırlanmışdır.

Məhsuldar elmi fəaliyyəti və yüksək ixtisaslı tibb kadrları hazırlanmasındakı əvəzsiz xidmətlərinə görə A.Əliyev müstəqil Azərbaycanın "Şöhrət", "Qırmızı Əmək Bayrağı" ordenləri, "Səhiyyə əlaçısı" döş nişanı, bir sıra medal, fəxri fərman və tərifnamələrə layiq görülmüş, elmi-pedaqoji sahədəki xidmətlərinə görə ona "Əməkdar elm xadimi" fəxri adı verilmişdir.

Aqil müəllim bu gün cismən aramızda olmasa da, özündən sonra gözəl iz qoymuş bu bəşər övladı onu tanıyanların qəlbindədir.

**Yavər VƏLİYEV,**
*İqtisadi nəzəriyyə və hüququn əsasları kafedrasının müdiri, dosent*

# BASKETBOL KOMANDAMIZIN UĞURLU ÇIXIŞI

**Keçən ayın sonunda Texniki Universitetin idman sarayında Təhsil Nazirliyinin təşkil etdiyi "Zərərli vərdişlərə yox deyək" devizi altında doqquz ali təhsil müəssisələri arasında tələbə oğlanlardan ibarət basketbol yarışları keçirilmişdir.**



Məlumat üçün onu da deyim ki,bu tədris ilində yığma komandamızın heyətinə yeni oyunçular cəlb olunmuşdur.Gərgin mübarizə nəticəsində keçirilən yarışlarda komandamız II-ci yeri tutmuşdur. Bir məqçi kimi mən bu nəticəni komandamız üçün böyük qələbə hesab edirəm.Oyun zamanı göstərdikləri yüksək perspektivə görə komandanın kapitanı Abbas Bağırovun, oyunçulardan Murat Topalın, Zaur Novruzovun, Fateh Mehmet Aydəmirin, Əsəd Aycanın, Umir Berk Kurtun, Bilal Yıldırımın fərqləndiklərini xüsusi qeyd etmək istəyirəm.

Onu da bildirim ki, bu tip keçirilən oyunlar 2013-cü ildə ali məktəblər arasında aparılacaq Universiadaya hazırlıq məqsədi daşıyır. Qeyd edim ki, həmin yarışlarda iştirak edəcək komandaların say tərkibi ötən illə müqayisədə iki dəfə çox olacaq. Həmin yarışlarda bizi təmsil edəcək tələbələrimizin daha uğurlu çıxış etməsi üçün gərgin məşqlərlə yanaşı onların mənəvi və psixoloji hazırlıqlarına da ciddi fikir verilməlidir.

Komandamıza gələcək oyunlarda yeni qələbələr arzu edirəm.

**S.İSAYEVA,**
*İdman klubunun sədri, basketbol üzrə yığma komandanın məşqçisi*

# QİYMƏTLİ DAŞLAR MÜALİCƏ EDİR

## TURMALİN

**Turmalin kimyəvi tərkibinə görə qeyri-sabit və mürəkkəb olan mineraldır. Onun tərkibi şərti olaraq belə göstərilir: $AD_3G_6(BO_3)_3$ [Y3Z]. Burada: A=Ca, Na, K; d=Al, $Fe^{2+}$, $F^{3+}$, Li, $Mg^{2+}$, $Mn^{2+}$; G=$Al^{3+}$, $Cr^{3+}$, $Fe^{3+}$, $V^{3+}$; Y=O və ya OH; Z=F, O və ya OH-ı bildirir. Triqonal sinqoniyada kristallaşır. Peqmatitlərdə, qreyzenlərdə və s. tapılır.**



Turmalin çoxlu cürbəcür ilə fərqlənir. Həm də müxtəlif çalarlı daşlar müxtəlif adlarla adlandırılır: dəmirli qara turmalin -şörl,yaşıl turmalin -verdelit,tünd göy turmalin - indiqolit, litimlu bənövşəyi-çəhrayi turmalin elbait , tünd çəhrayi turmalin-rubellit, maqneziumlu sarı qonur turmalin -dravit.Bəzən turmalinə çalarından asılı xüsusi adlar da verirlər. Məsələn,"mavi başı", "türk başı", "qarpızabənzər" və s. Həmçinin "pişik gözü" və polixrom turmalin kristalları da mövcuddur.

Bənövşəyi- çəhrayi rəngli turmalin kristallarını Avropaya ilk dəfə 1703- cü ildə Seylondan dəniz səyahətçiləri gətirmişlər. Onlar bu kristalları "turemali" adlandırmışlar və mənası "qiymətli daş" deməkdir. Beləliklə, tərkibinə alüminium, bor, manqan və maqnezium birləşmələri daxil olan silikatın müxtəlif növlərinin turmalin adlandırılması əmələ gəlmişdir.

Turmalin yataqları Birma, Şri-Lanka, Madaqaskar, Hindistan, Əfqanstan, Qrelandiya, Almaniya,Norveç, ABŞ, Zimbabve, Mozambik, Tanzaniya, Kenya, Rusiyada Zabaykalye ərazilərində mövcuddur. Azərbaycanın Gədəbəy rayonunda Əyridağda qara turmalin kristalları yatağı var. Turmalindən akustik elektronikada, optikada, radiotexnikada və s. istifadə edilir. Onun şəffaf kristalları isə qiymətli daşdır. Turmalin süni yolla da alınır.

Yaşıl turmalin- verdelit daşları qara ciyər, sinir sistemi, qan dövranı və dəri xəstəliklərində kömək edir və immuniteti gücləndirir. Tünd göy turmalin- indiqolit insanın limfa, hormonal və immun sisteminə yaxşı təsir göstərir. Gədəbəydə çıxarılan qara turmalin-şörl öz ətrafında bütün zərərli təsir göstərən amillərə qarşı müdafiə zonası əmələ gətirir.

Belə hesab edirlər ki, turmalinlər qorxu və həyacanı aradan qaldırmaqla bədənə və idraka yaxşı təsir göstərir. Onlar diqqətin toplanmasına kömək edir və zəkaya aydınlıq verir. Tünd göy turmalin -indiqolitdən olan kulon sakit yatmağa köməklik göstərir.

Turmalinin insanda onurğa boyunca yerləşən mərkəzlərə təsiri daşın rəngindən asılı olaraq çox müxtəlifdir.

Turmalinlə bəzədilmiş daşqaşları, əsasən, Şir, Oğlaq və Oxatan bürcündən doğulanların taxması məsləhət görülür.

**Sahib ƏHMƏDOV,**
*Ümumi gigiyena və ekologiya kafedrasının dosenti*

# Bakıda XXI əsrin ciddi sosial-tibbi problemi olan diabetlə mübarizə yolları müzakirə edilmişdir

**ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) maliyyələşdirdiyi "Azərbaycanda səhiyyənin gücləndirilməsi" layihəsi çərçivəsində dekabrın 11-də Bakıda tibb mütəxəssislərinin iştirakı ilə brifinq keçirilmişdir.**

Tədbiri layihənin səhiyyə kommunikasiyası üzrə proqram meneceri Ayla Ələsgərova açaraq böyük sürətlə yayılan diabetin ciddi sosial-tibbi problemlər yaratdığını, ölkələrin iqtisadiyyatına və ailələrin maddi durumuna mənfi təsir etdiyini diqqətə çatdırmışdır. Bildirilmişdir ki, bu brifinq səhiyyəmizin dünya standartları üzrə inkişaf etməsinə zəmin yaradan layihə çərçivəsində artıq dördüncü dəfədir keçirilir.

Sonra Azərbaycan Diabet Cəmiyyətinin sədri Möminat Ömərova "Diabet XXI əsrin problemi: mübarizə yolları varmı?" mövzusunda məruzə ilə çıxış etmişdir.

Şəkərli diabetin insanların sağlamlığı üçün çətinliklər törətdiyini və inkişafın qarşısını alan əsas amillərdən biri olduğunu vurğulayan sədr bildirmişdir ki, hazırda dünyada 371 milyon nəfər bu xəstəlikdən əziyyət çəkir və diabetli insanların sayı durmadan artmaqdadır. Qeyd olunmuşdur ki, xəstəliyin profilaktikası və müalicəsi vaxtında aparılmasa çox ciddi fəsadlar törədə bilər. Beynəlxalq Diabet Federasiyasının statistikasına görə, 2030-cu ildə diabetdən dünyasını dəyişənlərin sayı 551,8 milyona çata bilər.

Diabetin xroniki fəsadlarından və risk amillərindən danışan M.Ömərova xəstəliyin qarşısının alınmasında sağlam həyat tərzinin, düzgün qidalanmanın və fiziki fəallığın vacibliyini qeyd etmişdir.

Tədbirdə, həmçinin Azərbaycan Tibb Universitetinin daxili xəstəliklər kafedrasının assistenti Müjgən Talıbovanın "Şəkərli diabetlə mübarizə yolları" mövzusunda məruzəsi dinlənilmişdir.

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin nümayəndələri Zəminə Abbasova və Aytən Vəlixanova isə əsrin bəlası olan diabetin yaratdığı problemlərdən danışmış və bu xəstəliyin müalicəsinə profilaktikasından daha çox xərc çəkildiyini bildirmişlər.

Tədbirdə ağır fəsadlar törədən şəkərli diabetlə bağlı əhalini maarifləndirməyin vacibliyi də vurğulanmışdır.

## AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
## AZƏRBAYCAN TİBB UNİVERSİTETİ
### KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN
## MÜSABİQƏ ELAN EDİR

**Kafedranın müdiri:**
- Psixiatriya kafedrası

**Kafedranın professoru (elmlər doktoru):**
- Qulaq, burun və boğaz xəstəlikləri kafedrası - 1 yer

**Kafedraların dosentləri (fəlsəfə doktorları):**
- İnsan anatomiyası kafedrası - 1 yer
- III daxili xəstəliklər kafedrası - 2 yer
- Pediatriya fakültəsinin cərrahi xəstəlikləri kafedrası -1 yer
- Neonatologiya kafedrası -1 yer (0,75 vahid)
- Urologiya kafedrası - 1 yer
- II cərrahi xəstəliklər kafedrası - 1 yer
- Patoloji fiziologiya kafedrası - 1 yer
- Azərbaycan dili kafedrası - 1 yer
- Dermatovenerologiya kafedrası - 1 yer (0,5 vahid)
- Fəlsəfə kafedrası - 1 yer (0,5 vahid)

**Kafedranın baş müəllimi:**
- İnsan anatomiyası kafedrası -2 yer

**Kafedranın müəllimi:**
- Azərbaycan dili kafedrası -1 yer

**Kafedraların assistentləri:**
- Oftalmologiya kafedrası -1 yer (0,5 vahid)
- II mamalıq ginekologiya kafedrası -1 yer
- III daxili xəstəliklər kafedrası -1 yer
- II uşaq xəstəlikləri kafedrası -1 yer (0,5 vahid)
- Uşaq cərrahlığı kafedrası -1 yer
- Neonatologiya kafedrası -1 yer (0,75 vahid)
- Operativ cərrahlıq və topoqrafik anatomiya - 1 yer (0,5 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**Bakı şəhəri- Az 1007, Bakıxanov küçəsi 23**

*Telefon: 597-43-23*

# TÜTÜN TÜSTÜSÜ – FƏSADLARI, STATİSTİK TƏDQİQATLARIN NƏTİCƏLƏRİ



**◆ Tütün tüstüsünün insan orqanizmi üçün nə dərəcədə zərərli olması artıq çoxlarımıza məlumdur. İllər keçdikcə, bu "zəhər"in insan orqanizmində törətdiyi fəsadların müxtəlifliyi və sayı artır...**

Tütün tüstüsü özündə 90 konserogen və 250 toksik maddələri saxlayan 4800 maddə tərkibli qarışıqdır. O, demək olar ki, bədənin ayrı-ayrı orqanlarına və nəhayətdə isə, bədənin ümumi sağlamlığına bütövlükdə zərər vurur. Xərçən-gin müxtəlif tipləri, ürək-damar, tənəffüs və qadın xəstəlikləri, diabet kimi xəstəliklərə səbəb ola bilir. Siqaret çəkmək gözlərə, diş və sümük strukturuna zərər vurur, inkişafın sürətini kəskin azaldır. Son onilliklərdə tütün tüstüsünün, siqaretin, siqarın və s. sonsuz fəsadlarının sayı süd vəzisi xərçəngi və orta qulaq infeksiyaları hesabına daha da artdı. Dünyada vərəm xəstələrinin 20%-i siqaret çəkənlərdir. Belə ki, artıq illərdir, siqaretlə vərəm arasındakı əlaqəyə dair güclü dəlillər mövcuddur. Aparılan araşdırmalar nəticəsində, alimlər, tütün tüstüsü vərəm xəstəliyi üçün ciddi risk faktoru olub, onun yaranma riskini 2,5 dəfəyə qədər artıra bildiyi qərarına gəlmişlər.

Hamiləlik ərzində siqaret çəkən qadınlar tütün tüstüsünün qəbulu ilə gələcəkdə uşağın abortu, ölü doğulması və ya hər hansı bir ciddi patologiya ilə nəticələnəcək mürəkkəbləşmələrin yüksək riskinə malikdirlər. Hamilə qadınların siqaret çəkməsi uşaqlarının müxtəlif dərəcəli qüsurlarla doğulması ehtimalını artırır. Evdə valideynlərdən birinin və ya hər ikisinin siqaret çəkməsi uşaqları ikinci əl tüstüyə (orqanizmdən xaric olan siqaret tüstüsü) qərq edir, onlarda qəfil körpə ölümü sindromu, kəskin tənəffüs infeksiyaları, qulaq problemləri və bir neçə astma növünün yaranmasına səbəb olur. Gələcəkdə isə ikinci əl tüstü hətta ürəyin işemiyası və idrak zəifləmələri kimi problemlər də yarada bilir. Qadınların tütünə aludəçiliyi onlarda reproduktiv və hormonal patologiyaların yaranması ehtimalını da artırır. Belə ki, erkən menapauza və menustral tsiklin pozulması bu tipli patologiyalara misaldır.

Nyu-Yorkdakı "American Health Foundation"un nəticələrinə görə, siqaret çəkən qadınların kişilərə nisbətdə ağciyər xərçəngi və ürək tutmalarına meyilliliyi daha yüksəkdir. Son 60 ildə ABŞ-da xərçəngdən ölən qadınların illik sayı 7 dəfə artaraq 68 minə çatmışdır. Onlarda estrogenin miqdarı çəkməyənlərə nəzərən təqribən 2 dəfəyə qədər azalır. Üz qırışlarının artması, diş ətinin iltihabı, dodaq, ağız boşluğu və tənəffüs sistemi orqanlarının xərçənginin olması riski artır. Qadınlarda ağciyər xərçənginin süd vəzisi xərçənginə nisbətən 3 dəfə çox ölümə səbəb olmasına baxmayaraq, onlar süd vəzisi xərçəngindən daha çox qorxurlar. Belə ki, bu yaxınlarda CNN-in təqdim etdiyi hesabatlara görə, tütün istifadəçisi olan qadınlarda süd vəzisi xərçənginin əmələ gəlməsi riski yüksəkdir. Əgər qadın istifadəyə daha erkən yaşlarından başlayırsa, risk daha da artır. CNN-in 30 il davam edən tədqiqatlarında 110000 qadın iştirak etmiş, 8772 süd vəzisi xərçəngi halı qeydə alınmışdır. Nəticələrə görə, müntəzəm siqaret çəkənlərin 6%-indən çoxunda istənilən vaxt xərçəngin əmələ gəlməsi ehtimalı vardır. Həmçinin müəyyən olunmuşdur ki, 30 il ərzində hər gün 1 qutu siqaret çəkmiş qadınların 28%-ində xərçəng təhlükəsi mövcud olmuşdur.

Tütün tüstüsü doğulanlar arasında cinsi disbalansa səbəb ola bilər. Normal olaraq, doğulanlar arasında oğlanların sayı qızlardan təqribən 4% civarında çox olur. Lakin "Lancet" tibb jurnalının araşdırmalarına görə, cütlüklərin uşaq planlaşdırma dövrü ərəfəsində qadının siqaret çəkməsi və ya ikinci əl tütün tüstüsü qəbul etməsi doğulacaq uşaqlarının qız olma ehtimalını yüksəldir. Tədqiqatı aparmış alimlərin fikrinə görə, kişi spermatozoid və embrionları uyğun olaraq qadınlarınkına nisbətən kövrəkdir. Habelə, alimlər düşünürlər ki, DNT və xromosom səviyyəsindəki kişi embrionu patologiyalarının əmələgəlmə ehtimalı və onların ağırlıq dərəcəsi tütün aludəçisi olan qadınlarda daha çoxdur. Həmçinin, bir çox İnkişaf Etmiş Ölkələrdə doğuşlarda oğlanların sayının azalmasında alimlər tütün tüstüsündəki toksik maddələri əsas səbəblərdən biri kimi qeyd edirlər.

Son zamanlarda şərq qadınları arasında siqaret çəkməyin dəbdə olan-arıqlamaq və qlamur görünmək kimi bəhanəli formaları daha təhlükəlidir. Çünki bu cür siqaret istifadəçiləri asanlıqla onun aludəçisi olurlar. Tütün aludəçilərində bədən çəkisinin azalması asanlıqla müşahidə olunsa da, onun sağlamlığa törətdikləri daha aydın nəzərə çarpır.

Bu fikri mütləq qəbul etmək lazımdır ki, tütün çəkməyin heç bir təhlükəsiz səviyyəsi, dərəcəsi və ya forması yoxdur. Belə ki, tütün tüstüsü daxil olduğu istənilən orqanizmdə fəsadlar törətməyə qadirdir.

**HAZIRLADI:**
**CAVİD FƏRZULLAYEV**
*II Müalicə-profilaktika fakültəsinin IV kurs, 206 [a] qrupunun tələbəsi*

## Etibarsız sayılır

Əczaçılıq fakültəsinin IV kurs, 890[b] qrup tələbəsi Muhammed Azad Əlinin adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə profilaktika fakültəsinin V kurs, 36[b] qrup tələbəsi Həsənli Aygül Elman qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Pediatriya fakültəsinin IV kurs, 405[b] qrup tələbəsi Eynullayev Əsəd Vidadi oğlunun adına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin IV kurs, 880[b] qrup tələbəsi Özkan Esra Hasan qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin I kurs, 802[b] qrup tələbəsi Hüseynova Könül Fariz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin IV kurs, 880[b] qrup tələbəsi Mehmet Şerif Çevrim Abdulcelil oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə profilaktika fakültəsinin V kurs, 38[a] qrup tələbəsi Hacılı Kənan Abtalıb oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Əmirova Arzu Oruc qızına Azərbaycan Tibb Universiteti tərəfindən 1990-cı ildə pediatriya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, 108[b] qrup tələbəsi Elşad Ələsgərlinin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Tibbi profilaktika fakültəsinin II kurs, 630[b] qrup tələbəsi Səfərova Ulduzə Əfqan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Eldar İsmayıl və "Təbib" qəzetinin redaksiyası, Əsaslı kitabxananın kollektivi, insan anatomiyası, xarici dillər, ailə təbabəti, ictimai sağlamlıq və səhiyyənin təşkili, fəlsəfə, travmatologiya və ortopediya, şüa diaqnostikası və şüa terapiyası, əczaçılığın texnologiyası, iqtisadiyyatı və təşkili, qidalanma və kommunal gigiyena, uşaq və yeniyetmələr, əmək gigiyenası kafedralarının əməkdaşları ATU-nun prorektoru, millət vəkili, professor Rafiq Məmmədhəsənova qardaşı

**Əziz müəllimin**

vəfatından kədərlədiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Stomatologiya fakültəsinin dekanlığı fakültənin dekanı, professor Zöhrab Qarayevə qardaşı oğlu

**Rövşən Qarayevin**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Təbib" qəzetinin kollektivi iş yoldaşları Cənnətalı Çingizə qaynanası

**Əliyeva Fitat Mirzəhüseyn qızının**

vəfatından kədərlədiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Fəlsəfə kafedrasının əməkdaşları kafedranın dosenti Hacı müəllimə qaynı

**Seid Mehdiyevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Cərrahi xəstəliklər kafedrasının əməkdaşları iş yoldaşları, dosent Şahin Hüseynova əzizi

**Ayxanın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Cərrahi xəstəliklər kafedrasının əməkdaşları iş yoldaşları, assistent İmran Şəfiyevə əzizi

**Ramilin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ümumi və toksikoloji kimya kafedrasının kollektivi iş yoldaşları Dilarə xanıma və mühasibatliq şöbəsinin əməkdaşı Ulduz xanıma əzizləri

**Gilə xanım və Nərgiz xanımın**

vəfatlarından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qidalanma və kommunal gigiyana, Azərbaycan dili kafedralarının əməkdaşları və ETM-in kollektivi mühasibatlıq şöbəsinin əməkdaşı Ulduz xanıma

**anası Gilə və bacısı Nərgiz xanımın**

vəfatlarından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ETM- in kollektivi, operativ cərrahlıq və topoqrafik anatomiya, iqtisadiyyat və hüququn əsasları və Azərbaycan tarixi, qidalanma və kommunal gigiyena kafedralarının əməkdaşları mikrobiologiya və immunologiya kafedrasının professoru Mehman Əliyevə qardaşı

**Akif müəllimin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ETM-in kollektivi, Operativ cərrahlıq və topoqrafik anatomiya, fəlsəfə, ümumi gigiyena və ekologiya, iqtisadiyyat və hüququn əsasları və Azərbaycan tarixi, əczaçılığın texnologiyası, iqtisadiyyatı və təşkili, qidalanma və kommunal gigiyena kafedralarının əməkdaşları yoluxucu xəstəlikləri kafedrasının müdiri, akademik Namiq Əliyevə nəvəsi

**Tamerlanın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai sağlamlıq və səhiyyənin təşkili, insan anatomiyası, əczaçılığın texnologiyası, iqtisadiyyatı və təşkili, uşaq və yeniyetmələr, əmək gigiyenası, xarici dillər, qidalanma və kommunal gigiyena kafedralarının əməkdaşları stomatologiya fakültəsinin dekanı, professor Zöhrab Qarayevə qardaşı oğlu

**Rövşən Qarayevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əczaçılığln texnologiyası, iqtisadiyyatı və təşkili kafedrasının əməkdaşları xarici dillər kafedrasının alman dili müəllimi Zəminə Mustafayevaya əzizi

**Liza zanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi profilaktika və tibbi biologiya fakültəsinin dekanlığı, ümumi gigiyena və ekologiya, qidalanma və komunal gigiyena və Azərbaycan dili kafedralarının əməkdaşları ümumi gigiyena və ekologiya kafedrasının dosenti Sevinc Fətullayevaya anası

**Göyçək xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın assistenti Y.Bayramova dayısı

**Mahal Qurbanovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Travmatologiya və ortopediya kafedrasının əməkdaşları kafedranın dosentı N.Həsənova əzizi

**Rüfətin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili kafedrasının əməkdaşları iş yoldaşları Heyran xanıma qaynı

**Famletin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nadir müəllim və Məhəbbət xanım yoluxucu xəstəliklər kafedrasının müdiri, akademik Namiq Əliyevə və K.Y.Fərəcov adına ETPİ-nin baş həkimi Tamilla Şahbazovaya əzizləri

**Tamerlan Əliyevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir vədərin hüznlə başsağlığı verirlər.

Ailə təbabəti kafedrasının əməkdaşları kafedranın assistenti Elnarə Qəzvinovaya anası

**Tamilla xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüzünlə başsağlığı verirlər.

Ailə təbabəti kafedrasının əməkdaşları kafedranın assistenti Çingiz Rüstəmzadəyə əzizi

**Ağkərimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüzünlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97

Lisenziya N - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 969